KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 3 (16) 2022

BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Gülgün Mübariz qızı Quliyeva**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi*
*Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müəllimi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Bahar Vaqif qızı Hüseyn**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi*
*Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müəllimi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# TÜRKİYƏ VƏ RUSİYANIN CƏNUBİ QAFQAZDA TOQQUŞAN MARAQLARI

***Xülasə:*** *Sovetlər Birliyinin çökməsi ərəfəsində Cənubi Qafqaz bölgəsinə qayıdan ilk dövlətlərdən biri Türkiyə oldu. Məqalədə Türkiyənin Cənubi Qafqaz Siyasəti onun regiondakı hədəfləri araşdırılır. Türkiyənin Cənubi Qafqazda ciddi hədəfləri vardır. Onların sırasında Ermənistanın regionda xaos yaratmasının qarşısının alınması xüsusi yer tutur.*

*Məqalədə Türkiyənin Cənubi Qafqaz, Cənubi Qafqazın da Türkiyə üçün əhəmiyyəti geniş şəkildə təhlil olunur. Məqalədə həmçinin bu bölgədə sülhün, sabitliyin və əməkdaşlığın təmin edilməsi Türkiyə üçün həyati əhəmiyyət daşımasının səbəbləri açıqlanır.*

*Məqalədə araşdırılan məsələlərin yekunu deməyə əsas verir ki, Türkiyə Cənubi Qafqazda iştirak edən aktorlar arasında region ölkələri xüsusilə Azərbaycan və Gürcüstan tərəfindən əsas tərəfdaş kimi qəbul edilir. Məqalədə Rusiyanın regiondakı maraqlarıda geniş təhlil olunub.*

***Açar sözlər:*** *beynəlxalq, sülh, müharibə, danışıqlar, diplomatiya, maraqlar.*

Gulgun Mubariz gizi Kuliyeva
Bahar Vaqif gizi Huseyn

**Conflict of interests**
**Turkey and Russia in the South Caucasus**

***Abstract:*** *Turkey was one of the first Countries to return to the South Caucasus on the eve of the collapse of Soviet Union. The article analyzes Turkey s South Caucasus policy and goals in the region. Turkey has serious goals in the region.*

*The article analyzes the importance of Turkey in the South Caucasus and Turkey in the South Caucasus. The article also highlights the vital importance of ensuring peace? Stability and cooperation in the region for Turkey.*

*The article also highlights Turkey's greater interest in Azerbaijan among the countries of the South Caucasus. It also reflects Azerbaijan's greater reliance on Turkey and its use of its experience on the path to independence. One of the main results of the article is that Azerbaijan is Turkey's main partner in the South Caucasus.*

***Key words:*** *intemational, war, peace, neqotiations, diplomasy.*

**Гульгун Мубариз кызы Гулиева**
**Бахар Вагиф кызы Хусейн**

**Противоречие интересов**
**Турции и России на Южном Кавказе**

*Турция была одним из первых государстов, вернувшихся в регион Южного Кавказа накануне распада Советского Союза.*

*В статье рассматривается политика Турции на Южном Кавказе и ее в регионе. У Турции серьезные цели на Южном Кавказе. В статье широко анализируется значение Турции на Южном Кавказе и Южного Кавказа для Турции.*

*Вывод по исследованным в статье вопросам свидетельствует о том, что Азербайджан и Грузия рассматривают Турцию как основного партнера. В статье подробно анализируются интересы России в регионе.*

***Ключевые слова.*** *международный, дирломатия, переговоры, война, мир, договор, интересы.*

Cənubi Qafqaz bölgəsi strateji və geosiyasi əhəmiyyətinə görə bütün dövrlərdə böyük dövlətlərin diqqət mərkəzində olub. Bu gün də Cənubi Qafqaz bölgəsi özünün zəngin enerji ehtiyatları, Böyük İpək Yolunun üzərində





yerləşməsi, eyni zamanda enerji dəhlizi olması ilə yenə də əhəmiyyətini qoruyub saxlayır. Bölgə uğrunda gedən mübarizələrdə Türkiyə həmişə aktiv iştirakçılar sırasında yer alıb. XX əsrin əvvəllərində müstəqilliklərini itirən Sovetlər Birliyinin tərkibinə qatılan respublikalar Türkiyə ilə heç bir sahədə əlaqə saxlamayıblar. SSRİ-nin süqutundan və yeni dövlətlərin meydana gəlməsindən sonra postsovet məkanında yerləşən ərazilərin geosiyasi vəziyyətində dəyişikliklər hiss olunmağa başladı. Bu dəyişikliklər, eləcə də soyuq müharibənin sona çatması Cənubi Qafqaz regionunu inkişafına da öz təsirini göstərməyə bilməzdi. Türkiyə yenidən regiona qayıtdı. Türkiyənin xarici siyasəti Cənubi Qafqaz respublikaları ilə sülh, əminamanlıq, mehriban qonşuluq və iqtisadi yüksəlişə əsaslanaraq quruldu. Münasibətlər bu gün də yüksələn xətt üzrə davam etməkdədir.

Cənubu Qafqaz bölgəsi tarixən siyasi, dini və mədəni münaqişələrin və mübarizənin sahəsi olmuşdur. Bölgənin köhnə dövlətləri içərisində Albaniya. İberiya kralıqları iştirak ertməkdədir. Bu kralıqlar daha sonra Əhəməni imperatorluğu və Sasani imperatorluğuna birləşdirilmişdir.Nəticədə, əvvəl Zərdüştlük sonra da Xristianlıq bölgədə suveren dinlər olmuşlar.

VII əsrdə bölgəni Xilafətin ələ keçirməsiilə Cənubi Qafqazda İslam yayılmağa başlamışdır. Sonrakı əsrlər içində Səlcuqların, Monqolların və Türk xaqanlıqlarının suverenliyində olan bölgə 1501-ci ildə Səfəvi dövlətinin rəhbərliyinə keçmişdir. XVII əsrdəki qısa davamlı Osmanlı hakimiyyəti xaricində XVIII əsrin ortalarına qədər bölgə ümumi olaraq Səfəvi suverenliyində qalmışdır.

1747-ci ildə Nadir Şah Əfşarın öldürülməsindən sonra Cənubi Qafqazın cənub seqmentində həqiqətən müstəqil Türk xanlıqları qurulmuşdur XIX əsin əvvəlində reallaşan iki Rus-Qacar müharibəsinin nəticəsində Cənubi Qafqaz tamamilə Rusiyanın imperatorluğu tərəfindən işğal edilmişdir.Cənubi Qafqaz turizm resursları ilə zəngin bölgədir. Regionda yerləşən Böyük Qafqaz dağları Qara dənizdən Xəzər dənizinə kimi uzanır və Cənubi Qafqazda yerləşən hər üç dövlətin ərazisindən keçir [3].

Cənubi Qafqaz yerləşdiyi ərazi, mövcud ehtiyatları baxımından Türkiyə üçün tarixin bütün dövrlərində böyük əhəmiyyət kəsb etmişdir. Cənubu Qafqaz bölgəsi " Şərq və Qərb, Şimal və Cənub " arasında körpü olmaq kimi bir xüsusiyyətindən irəli gələrək strateji əhəmiyyətə malikdir. Sovet İttifaqı dövründə Qafqaz Respublikaları müstəqil deyildi və Türkiyə ilə bu Respublikalar arasında siyasi, iqtisadi, mədəni əlaqələr yox idi. SSRİ-nin dağılmasından sonra Türkiyə də digər böyük güclər kimi özünün Cənubi Qafqaz siyasətini formalaşdırıb həyata keçirməyə başladı.

Türkiyə Cümhuriyyəti 1918-ci ildə imzalanan Brest-Litovsk müqavilesi nəticəsində Türkiyəyə ilhaq edilən Qars, Ərdahan və Batumdan başqa Azərbaycan və Dağıstan regionlarının da daxil olduğu qüdrətli Türk-İslam dövləti yaratmaq iddiasında idi. Sovetlər İttifaqının dağılmasından sonra

Türkiyə regiona yenidən qayıtdı. Soyuq müharibə sonrası inkişaflar.bölgənin strateji mövqeyini daha da inkişaf etdirərək, bütün Avrasiyada, sabitlik və rifahın təmin edilməsii üçün, bir daha əhəmiyyət qazandı. Türkiyə üçün Cənubi Qafqaz, Orta Asiyada olan Türk Respublikaları ilə siyasi, iqtisadi, mədəni əlaqə və keçid bölgəsidir. Qafqazda olan Türk və Müsəlman birlikləri ilə, Türkiyənin ortaq dil, din, mədəniyyət və soy birliyi əlaqəsi olması, bölgəylə ortaq tarixi keçmişinin mövcudluğu və Cənub Qafqazın geopolitik əhəmiyyəti, Türkiyənin bölgə ilə yaxından maraqlanmasını gündəmə gətirir.

Soyuq müharibədən sonra Türkiyə, Qaradəniz, Qafqazlar və Orta Asiyaya coğrafiyada əhəmiyyətli problemlər və fürsətlər ilə qarşılaşmışdır. SSRİ nin dağılmasından sonra geopolitik bir sarsıntı keçirən Qafqaz, qlobal və regional aktorların qarşılaşmasına səhnə oldu. Bu vəziyyət Türkiyənin Rusiya ilə movcud sərhədlərinin aradan qalxması və Gürcüstan, Azərbaycan və Ermənistan ilə sərhədlərin meydana gəlməsi ilə Türkiyənin daha məsuliyyətli siyasət yeritməsinə səbəb oldu.

Xüsusilə qeyd olunmalıdır kı, Bölgə enerji ehtiyatları baxımından da Türkiyə üçün əhəmiyyətlidir. Türkiyə həm bu enerjidən asılıdır həm də təbii ehtiyatların Qərbə çatdırılmasında əhəmiyyətli bir mövqededir. Tarix boyunca geopolitik əhəmiyyətə malik Cənubi Qafqaz, SSRİ dağılandan sonra da bu mövqeyini qoruyub saxlamışdır. Rusiya Federasiyası öz təhlükəsizliyini təmin etmək baxımından Cənubi Qafqaza böyük əhəmiyyət verir, hətda cox vaxt bu bölgəni özününkü hesab edir. Qeyd olunmalıdırkı bölgə Türkiyə, Rusiya Federasiyasının maraqları ilə bitmir, həmçinin ABŞ, Qərb, Aİ ölkələri İranın özüdə bölgəyə böyük maraq və iddialarla yanaşırlar. Başda ABŞ olmaqla Qərb ölkələri, bölgənin sabitliyini təmin etmək məqsədilə əvvəllər Rusiya Federasiyası ilə müttəfiq kimi çıxış etmək istəsələrdə Rusiyanın imperialist siyasəti dövlətləri çəkindirmiş və onlar Türkiyə ilə əməkdaşlığa üstünlük vermişlər [11, s. 62-63].

Güc mərkəzlərinin Qafqaz siyasətlərinin Türkiyə xarici siyasət baxımından qiymətləndirilməsi və Türkiyənin bölgədə tətbiqi lazım olan siyasətlərin maksimum qazanc və təhlükəsizlik anlayışı baxımından ortaya qoyulması meydana gəlməkdədir (Əndican, 1998). Bölgənin, Avrasiya üçün strateji əhəmiyyətinin yanında, Cənub Qafqaz bölgəsindəki sabitlik və rifah, Türkiyənin, öz təhlükəsizliyi və sabitliyi baxımından, xüsusi əhəmiyyət kəsb etməkdədir. Cənubi Qafqazı, Türkiyənin, Orta Asiyaya açılan təbii qapısı olaraq, qəbul etmək mümkündür [2, s. 92].

Qafqaz, Anadolu coğrafiyasının bir davamı, tamamlayıcısıdır. Türkiyənin geostrateji üfüqi, strateji maraq sahəsi Qafqaza uzanır. Türk şəxsiyyətinin, varlığı Türk mədəniyyətinin gələcəyə istiqamətl universal dəyər və ağırlığı, Qafqazdakı inkişaflarla həqiqətən də əlaqədardır. Bölgə, eyni zamanda Türkiyə üçün, təhlükəsizlik baxımından da, təhdid qaynağı olaraq da qəbul edilə bilər. Cənubi Qafqazda movcud olan problemlər, qarşıdurmalar və





xüsusilə Ermənistan ilə yaxşı olmayan əlaqələr, bölgəni təhlükəsizlik baxımından da Türkiyə üçün əhəmiyyətli məsələyə çevirmişdir.

Cənubi Qafqaz-Sovetlər Birliyinin dağılması ilə ortaya çıxan güc boşluğunun tapıldığı və bu səbəblə güc mübarizələrinin yaşandığı, əhəmiyyətli sabitsizliklərin ortaya çıxdığı, Türkiyənin yanı başında və onun milli mənfətləri ilə milli təhlükəsizliyinə təsir edən bir bölgədir. Bu coğrafiya, tarix, dil, din və mədəniyyət bağı ilə bağlı olduğumuz Türk respublikalarının iştirak etdiyi bir bölgə olması ilə yanaşı SSRİ-nin dağılmasından sonra ortaya çıxan milliyyətçılık cərəyanlarının təsiriylə, öz mənlikləri və mədəniyyətlərini canlandırmaq üçün kömək gözləyən çox sayda Türk birliyinin də iştirak etdiyi bir bölgədir. Xüsusilə Orta Asiyada olan, bu Türk dövlət və birlikləri ilə əlaqə Cənubi Qafqaz və Xəzər Dənizi üzərindən reallaşmaqdadır.

Dünyəvi və demokratik Türkiyəni model olaraq götürmək istəyən Rusiyanın əsrlərdir zülmünü yaşamış və sərbəst bazar iqtisadiyyatı qaydalarını mənimsəməyə istəkli, güclü bir Türk dünyası, Rusiya imperializminə qarşı, Türkiyənin təhlükəsizliyi baxımından da əhəmiyyətli görünür. Eyni zamanda Türkiyə bu dövlətləri Rusiya federasiyasına qarşı bir zəmanət olaraq görməkdədir [10, s. 117].

Mustafa Kamal Atatürk vaxtilə SSRİ-nin gələcəyinə, çökəcəyinə və postsovet ümumtürk həmrəyliyinə dair çox əsaslı mülahizələr söyləmiş, özünü yetərincə doğruldan proqnozlar vermişdi. O, Türkiyə Cümhuriyyətinin 10 illiyi ilə əlaqədar söylədiyi nitqində (X.1933) gələcəyə aid müfəssəl bir proqram irəli sürmüşdü. Həmin proqram səciyyəli nitqdə vurğulanan başlıca və prinsipial müddəalar tezisvarı belə ifadə oluna bilər: Bu gün Sovetlər Birliyi dostumuz, qonşumuz, müttəfiqimizdir və bu dostluğa ehtiyacımız vardır: fəqət sabah nə olacağını kimsə deyə bilməz. O da Osmanlı, Avstriya-Macarıstan kimi parçalana, kiçilə bilər və indi əlində möhkəm tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni bir düzən ala bilər. Türkiyə bu zaman nə edəcəyini bilməlidir (Sözgəlişi, Böyük Atatürkün tarixi öngörmə xəbərdarlığına baxmayaraq Türkiyə göstərilən beynəlxalq köklü dəyişikliklərə, xüsusilə də SSRİ-nin dağılması kimi yeni şəraitə tam hazır görülmədi). Bu dostumuzun idarəsində dili, inancı, özü (kökü) bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq hazir olma, susub yalnız o günü gözləmək deyildir. Mənəvi körpüləri əsas tutaraq hazırllanmaq lazımdır. Dil, inanc və tarixsə bu körpülərdir. Onların bizə yaxınlaşmasını gözləməməliyik. Bizim onlara yaxınlaşmağımız gərəkdir [5, s. 583].

1991-ci ildə Sovetlər Birliyinin dağılmasıyla Türkiyə, Cənubi Qafqaz ölkələrinin müstəqilliklərini, heç bir ayrı-süçkilik salmadan tanımış, bölgə ölkələri ilə əməkdaşlıq arzusunu ortaya qoymuşdur. Türkiyəni Qafqazlardan ayrı düşünmək mümkün deyil. Qafqazlar-Türkiyənin beynəlxalq xarici siyasətlərinin təsiri yanında, Bölgədəki Türk elementlərin varlığı ilə daxilli siyasətində də əhəmiyyətli rol oynamaqdadır. Orta Asiya Respublikaları ilə

Türkiyənin əlaqələrinin təmin edilməsində, Cənubi Qafqaz sanki bir körpü vəzifəsi daşıyır. Cənubi Qafqaz coğrafi yaxınlıq, iqtisadi əməkdaşlıq imkanları və təbii qaynaqları səbəbiylə Türkiyə üçün əhəmiyyətli bir əlaqə sahəsi meydana gətirməyə də davam edəcək. Cənubi Qafqaz tarixən Şərq və Qərb arasında bir körpü olmuş və bu gündə bu əhəmiyyətini qoruyur. Bu körpünün olmaması Türkiyənin Türk dünyası ilə əlaqələrinin qopması deməkdir.

İndiki zamanda SSRİ nin mirası olan Rusiya federasiyası, bütün gücü və imperialist ənənələri ilə Anadoluya ən böyük təhdidi meydana gətirməkdədir. Beləcə, Qafqaz bölgəsi, Türkiyə ilə Rusiya arasında bir maraq zonası olaraq günbəgün artırmaqdadır. Cənubi Qafqazın öz müstəqiliyini bərpa etməsi, Türkiyənin də təhlükəsizliyi baxımından əhəmiyyətlidir. Bölgənin zəngin yeraltı sərvətlərinin Türkiyə vasitəsilə Qərbə çatdırılması, bölgədəki Türk varlığının müstəqillik və suverenliyinin davamı üçün əhəmiyyətlidir.

Türkiyənin, Qafqaz siyasətini əsasən belə qruplaşdıra bilərik:

1) Rusiya Federasiyası ilə əlaqələr, rəqabət və qarşıdurma xəttinin xaricinə çıxarılaraq, ərazi bütövlüyünə hörmət və daxili işlərə qarışmama prinsipinə əməl olunmalı, bütün sahələrdə əməkdaşlıq təmin olunmalıdır.

2) Cənubi Qafqazın təhlükəsizliyinin təmin edilməsi və hər sahədə əməkdaşlıq bölgəsi halına gətirilməsi təmin edilməlidir.

3) Orta Asiya və Cənubi Qafqaz Respublikalarının tam müstəqil və severen dövlətlər olaraq demokratikləşmə, sərbəst bazar iqtisadiyyatlarına keçmələrinə və iqtisadi müstəqilliklərinin təmin olunmasına kömək göstərilməli, bu ölkələr ilə də bütün sahələrdə əməkdaşlıq həyata keçirilməlidir.

4) Azərbaycanın Rusiyanın təsir dairəsindən azad olunmuş, yenicə azad olunmuş Dağlıq Qarabağ da daxil olmaqla bütün problemlərin həllində yardım göstərilmiəlidir.

5) Qafqaz vasitəsilə Orta Asiyaya köməklik göstərilməlidir.

6) II Qarabağ müharibəsindən sonra Türkiyənin Ermənistana göstərəcəyi münasibət birbaşa Azərbaycanın maraqlarına xidmət etməlidir. Türkiyə xüsusilə, 1921-ci il Qars və Moskva müqavilələrinin etibarlı olduğunu və torpaq tələbi ilə soyqırım iddialarının olmadığının Ermənistan respublikası tərəfindən rəsmi olaraq bir sənəd ilə bəyannaməsini tələb etməlidir [6].

Türkiyənin Qafqazdakı əsas hədəfləri:

1) Qafqazı, Orta Asiya və Rusiya Federasiyası ilə nəqliyyat yolları baxımından təhlükəsiz bir vəziyyətə gətirmək.

2) Rusiya işğalının yenidən meydana gəlməsinə qarşı Qafqazı buffer zonaya çevirmək.

3) Türk iqtisadiyatının gücləndirilməsi üçün hərtərəfli əlaqələr yaradaraq, bölgənin iqtisadi potensialından istifadə etməli.

Bunlara nail olmaq üçün isə Ermənistan və Gürcüstanın Türkiyəyə güvənmələrinə şərait yaratmaq, Azərbaycanın Errmənistan və Gürcüstan ilə problemlərinin həll edilməsinə kömək göstərmək, həmçinin Azərbaycanın





mədəniyyət, iqtisadi və içtimai istiqamətdən Türkiyəyə yaxınlaşması üçün kömək etmk, Gürcüstanın Türkiyənin Orta Asiyaya çıxış qapısı ola biləcyini nəzərə alaraq əlaqələri inkişaf etdirmək, Ermənistandan gələ biləcək risk və təhlükələrə qarşı həmişə hazır olmaq lazımdır. Əsas məsələ isə yaxın gələcəkdə Rusiya Federasiyasının siyasi və əsgəri varlığının Qafqazdan uzaqlaşdırılmasıdır. Cənubi Qafqazın Türkiyə üçün Orta Asiyaya açılan qapı olmasını nəzərə alaraq Türkiyə Cənubi Qafqazda Rusiya maraqlarına zidd olaraq Azərbaycanın və Gürcüstanın təhlükəsizliyinin təminində yaxından iştirak etməklə qarşıya qoyduğu hədəflərə çata bilər.

SSRİ-nin çökməsi ilə Bölkədə siyasi sabitliyi təmin etmək məqsədilə Türkiyə tərəfindən yenidən irəli atılan "Qafqaz İttifaqı" ideyası müsbət yönlü bir addım kimi dəyərləndirilməlidir. İttifaqın irəli sürüldüyü zaman açıqlama həmin vaxt Türkiyəni baş naziri Rəcəb Tayyib Ərdoğan tərəfindən verildi və göstərildi ki, "İttifaq"ın əsl məqsədi region dövlətlərini bir araya gətirməklə bölgədə sülh və əmin-amanlığa şərait yaratmaqdır.

Ərdoğan bu ittifaqın yaradılmasını regionda daim sülhün bərqərar olacağına şərait yaratmasını bildirirdi. Bakı Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum, və Bakı-Tiflis-Qars proyektlərini regional barış və təhlükəsizliyi dəstəkləyən ən yaxşı iqtisadi layihələr olaraq irəli sürürdü. Ərdoğan hələ o vaxtlar bu cür proyektlərin sayının artırılaraq Qafqazdakı bütün insanları bir-birinə bağlaya biləcək şəkildə genişləndirilməsinin lazımlığını ifadə etmişdir. Türkiyə tərəfi yaradılacaq "Qafqaz İttifaqı"nın xüsusilə bölgənin ən ağrılı problem olan Bakı – İrəvan arasındakı Dağlıq Qarabağ probleminin tamamilə aradan qaldırılmasına ümidli idi.

Tarixə nəzər salsaq, Avropa Kömür və Polad birliyi yaradılarkən Almaniya və Fransa arasında movcud problemlərin həllinə iki ölkə arasında müəyyən fasilələrlə davam edən müharibənin düşünülməz hala gətirilməsinə hesablanmışdı. Və bugün reallıq göz qabağındadı, Avropa Evinin memarları hesab olunan Almaniya və Fransa arasında bu günə kimi hər hansı bir problem yaşanmayıb, Qafqaz evi ilə bağlı ideyalar isə Avropa evi ideyasından öncə meydana gəlmişdi. Dəfələrlə irəli sürülən "Qafqaz Evi", "Qafqaz ittifaqı" ideyaları həmişə ermənilərin ucbatından həyata keçirilməmişdi. Dağlıq Qarabağ problemi Azərbaycanın problemi olduğu qədər Türkiyənin də problem hesab olunmalıdır.

44 gün davam edən İkinci Qarabağ müharibəsi bunu əyani sübut etdi. 30 ilə yaxın bir müddətdə problemin həllinə kömək gözlənilən beynəlxalq qurumlardan fərqli olaraq Türkiyə Cümhuriyyəti bir an olsun belə Azərbaycanı tək qoymadı. Problem bir mənalı şəkildə Azərbaycanın xeyrinə həll olundu. İkinci Qarabağ müharibəsinin yekunları Azərbaycanın tarixi torpaqlarını geri qaytarması hələdə problemin tam həlli demək deyil.

Bölgədəki mövcud sülhməramlıların fəaliyyəti hələdə bölgənin həsaslığına dəlalət edir. Qafqazda problem olan və Rusiyanın diqtəsi ilə

hərəkət edən Ermənistan sabitsizliyin əsas qaynağıdır. Rusiyanın strateji ortağı və onun ən sadiq müttəfiqi Ermənistan, ancaq Türkiyə–Azərbaycan və Gürcüstan yaxın əməkdaşlığı ilə bitərəf ediləcək. Dənizlərə çıxışı olmayan, geopolitik və strateji əhəmiyyəti tapılmayan, zəngin yeraltı və yerüstü zənginlikləri ilə enerji ehtiyatlarına malik olmayan Ermənistanın ən böyük üstünlüyü, Rusiya ilə başda ABŞ və Fransa kimi Qərb ölkələrində yaşayan Ermeni diasporunun olmasıdır.

Cənubi Qafqaz zəngin enerji ehtiyatlarına malik olmasına baxmayaraq, Bölgədəki ümumi iqtisadi vəziyyətin zəif olması isə, bir çox regional problemin böyüməsinə səbəb, həll edilməsinə isə maneə yaradır [8]. Buna görə də iqtisadi problemlər həlll edilmədən regiondakı digər problemlərin həlli çətin olacaqdır.

Tanınmış ingilis diplomatı, uzun illər İngiltərənin xarici siyasətinə yönüm vermiş Lord Kerzon vaxtılə belə mülahizə söyləmişdir: "Rusiyanın necə ki, Hindistana iddiası yoxdur, bizim də Qafqaza təmənnamız olmamalıdır" [14, s. 801].

Bu "səmimi" geosiyasi münasibət müəyyən ölçülərdə bu gün pozulmaqdadır. Kontinental imperiyanın dağılmasından sonra onun varisi olan Rusiya Federasiyası tamamilə yeni, "sovet məkanının " təsəvvür etmədiyi bir realıqlarla üzləşməli olmuşdur. Bu proses bütün dünya politoloqları üçün dərin düşüncə, hərtərəfli və əvvəlkindən fərqli metodologiya əsasında düşünüb-danışmaq predmeti olmuşdur.

XVIII əsrin filosoflarından Ş.Monteskye vaxtılə demişdir ki, kiçik dövlətlər daha çox xarici düşmənin zərbəsindən, iri dövlətlər isə daxili xəyanət nəticəsində məhv olurlar. N.A.Nartovun fikrincə, gələcəkdə xalqlar Qorbaçovu, Yeltisini Yakovlevi də Q.Otrepyev kimi vətənini dağıdan xain adlandıracaqlar [15, s. 150-151].

Məlumdur ki, Rusiya keçmiş SSRİ imperiyasının aparıcı dövlətlərindən olmuş və hazırda adı çəkilən imperiyanın varisi rolunda syasət yeridir. Cənubi Qafqaz respublikalarıda həmin imperiyanın - əvvəlcə Rusiya, sonra SSRİ imperiyasının tərkibində olmuş, müstəqillik əldə etdikdən sonra həmin müstəqil Rusiya ilə münasibətlər qurmuşlar.

Hadisələr göstərir ki, iri qonşu dövlətlə əlaqələrin yaradılması Qafqaz respublikaları üçün müəyyən problemlər yaradır. "Talış kartı", "ləzgi kartı", "avar problemi", "kürd məsələsi" kimi geoideoloji priyomları qeyd etmək kifayətdir. Bundan məqsəd Qafqazda geostrategiyanı həyata keçirməkdir [13].

Realıqlar göstərir ki, Moskva ənənəvi xarici siyasətindən, regiondakı siyasi-ideoloji ambisiyalarından əl çəkmək niyyətində deyildir. Rusiya hesab edir ki, rəqabət obyekti olsa da o, regiona geosiyasi nəzarət imkanı əldə etməlidir. Rus geosiyasətinin başlıca məqsədi ondan ibarətdir ki, regiona əsas borular əvvəki qayda üzrə yenə də Rusiya ərazisindən Qara dənizdən Novorossiyskidə yerləşən rus terminalına getməlidir.





Bu kiçik üstünlüyündən Rusiya geosiyasi təsir gücü kimi istifadə etməklə regionda uzunmüddət qalacağına, Qafqazın yeni ehtiyatlarından istifadə edəcəyinə ümid bağlayır. Z.Bjezinski obyektiv olaraq qeyd edirdi ki, əksinə, əgər borulardan biri Xəzər dənizindən Azərbaycana, sonra isə Türkiyə vasitəsiləAralıq dənizinə, digər tərəfdən isə Əfqanistan vasitəsilə Ərəb dənizinə keçərsə, regiona nəzarət məsələsində heç bir təkhakimiyyətlilik olmayacaqdır. Bu geosiyasi məqam Rusiya analitiklərini daha çox düşündürürdü. Regiona tam nəzarət edə bilməyəcəyi təqdirdə buranın ehtiyatlarının başqaları tərəfindən işlənməsi Rusiya siyasi elitasında təssüf doğurur [12, s. 155].

Hər halda bir fakt danılmazdır ki, regiona xarici qüvələrin təsirinə və nüfuz etməsinə imkan verməmək üçün Rusiyanın siyasi iradəsi və kapitalı çox zəifdir. Bununla yanaşı, bu ölkənin sağlam düşüncəli siyasi elitası başa düşür ki, yeni dövlətlərdə demokratik proseslərin getdiyi bir vaxtda Rusiyanın cənub sərhədlərində zorakılıq hallarına yol verilməməlidir, çünki bu partlayışa gətirib çıxara bilər.

Amerika siyasətçısı T.Telbot məhz bununla bağlı qeyd edir ki, "Ruslar yaxşı olardı ki, İsveç cəngavərlərinə qalib gəlmiş Aleksandr Nevskinin obrazına az, "Novoqorod tacirlərinin "Qanzey" ideyasına çox diqqət yetirsinlər [15].

Z.Bjeziniski öz fikrini daha aydın izah edərək yazır ki, Rusiya ya imperiya ola bilər, ya da demokratiya, lakin o, eyni zamanda bunların hər ikisi ola bilməz [4, s. 81].

"Yaranmış şəraitdə, Rusiya Qafqazdakı geosiyasi oyunlarda nüfuzlu olmaq istəyən dövlət kimi ilk növbədə özünü demokratik hökumət kimi təqdim etməyi bacarmalıdır. Bu, hər halda Rusiyanın indiki mərhələdə zəifliyindən irəli gəlir. Danılmaz həqiqətdir ki Qafqaz geosiyasətində Ermənistan–Azərbaycan, Qarabağ konflikti qarşıdurma amili kimi regionda Rusiya–Azərbaycan münasibətlərinə bir müdət təsir göstərdi. Rusiyanın Ermənistandan ölkəmizə qarşı istifadə etməsi onun Qafqazın təhlükəsizlik sisteminə heç bir pozitiv fayda gətirmədi.

Rusiya Federasiyasının Ermənistana göstərdiyi üstüörtülü dəstək münaqişənin 30 illik bir dövrə kimi davam etməsinə gətirib çıxardı. Bu günkü reallıq isə demək olar kı, Ermənistan içtimaiyyətində birmənalı şəkildə qəbul olunmur. Onu da qeyd etməliyik ki, Qafqazda yaşanan problemlərin əsası, bölgə ölkələrinin özlərinin öz problemlərini həll edə bilməməsindən irəli gəlir. Bu vaxta kimi Ermənistan Rusiya ilə ikitərəfli əməkdaşlığı üstün tutaraq özünü təminat altında saxlayır. Gürcüstanın təhlükəsizlyini isə "Türkiyə-ABŞ Qafqaz iş qrupu"nun qarşılıqlı dəstəyi ilə aradan qaldırmağa calışır. Bölgədəki enerji koridorlarının təyin olunmasında yeganə güc olmağı hədəfləyən Rusiya Federasiyası Türkiyənin bölgədəki nüfuzunu zəiflətmək məqsədilə müxtəlif qrupları dövriyəyə daxil edir.

Türkiyə Azərbaycan əlaqələrinə gəlincə isə demək olarki olduqca yaxşı vəziyyətdədir. Türkiyə Rusiya, İran, Orta Asiyanın Türk Respublikaları, Gürcüstan kimi ölkələrlə də balanslı əlaqələr həyata keçirməkdədir.

Türkiyəni regiona qayıdışı təbii ki Azərbaycan tərəfindən böyük razılıqla qarşılandı, bu qayıdış Gürcüstan üçündə qənaət bəxş sayılırdı. Ermənistan isə tarixin bütün anlarında olduğu kimi yenə də istisnalıq təşkil etdi. Belə ki, 23 avqust 1990-cı ildə Ermənistanın Müstəqillik Bəyannaməsinin 11-ci maddəsində Osmanlı Türkiyəsində və Qərbi Ermənistanda ermənilərə qarşı törədilmiş soyqırımın beynəlxalq aləmdə tanınması hökmünün yer alması və Ermənistan parlamentinin 1991-ci ilin fevral ayında verdiyi bəyanatda Qars müqaviləsi ilə müəyyən edilmiş sərgədləri tanımadığını açıqlaması Ermənistanla diplomatik əlaqələrin qurulmasına mane olmuşdu.

Habelə Qarabağ münaqişəsi səbəbindən Türkiyə içtimaiyyəti Ermənistanla ikitərəfli əlaqələrin qurulmasına qarşı idi. Buna baxmayaraq Türkiyənin xarici işlər idarəsi Ermənistanla münasibətlərin qurulmasına üstünlük verərək 15 dekabr 1991-ci ildəheç bir şərt irəli sürmədən bu dövlətin müstəqilliyini tanıdı. Lakin Ermənistan Türkiyəyə qarşı aqressiv siyasətini israrla davam etdirdiyi üçün iki ölkə arasında diplomatik münasibətlər qurulmadı [9].

Erməni–türk münasibətlərinin qaydaya salınmasında bu gün də keçilməz sədlər və maneələr movcuddur. Bu günədək adları çəkilən dövlətlər arasında diplomatik münasibətlər yox dərəcəsindədir. 1915-ci ildə Osmanlı imperiyası dövründə saxta erməni soyqırımını bütün dünyaya bəyan etməyə çalışan, Türkiyənin də bu faktı qəbul etməsinə nail olmaq istəyən və bu məsələni şişirdərək hakim dövlətlərin nəzərinə çatdıracaq məzlum, aciz dövlət rolunu oynayan Ermənistan bununla Türkiyə ilə münasibətlərinə sağalmaz zərbələr vurur. Ermənistanın Türkiyəyə qarşı iddialarında yeddi sancağın Ermənistana verilməsi məsələsi heç də bu dövlətin xarici siyasətində erməni soyqırımının tanıdılmasından az əhəmiyyət kəsb etmir. Bununla yanaşı, 1998-ci ildə hakimiyyətə gələn prezident R.Köçəryan xalqına vəd verdi ki, bu soyqırım məsələsi beynəlxalq səviyyəyə çatdırılacaq və Ermənistanın xarici siyasət prioritetlərindən birinə çevriləcəkdir [19].

Türkiyənin Cənubi Qafqaz siyasəti, SSRİ nin dağılmasından sonra yeni dəyişikliklər meydana gətirdi. Balkanlar, Orta Şərq və İslam dünyasında böyük təsirə malik olan Türkiyə bölgə dövlətləri tərəfindəndə güclü və dünya dövlətləri arasında sayılıb seçilən dövlət kimi qəbul edildi. Türk xarici siyasəti baxımından bölgənin əhəmiyyəti ortadadır. Türkiyə regiona olan marağını nəzərə alaraq regionla olan münasibətləri daha yaxşı səviyyəyə gətirməli və movcud olan proyektlərə sürət verməlidir ki, bölgənin sabitliyi və əmin amanlığının təminində payı olsun. Bölgədə Azərbaycan və Gercüstanla əlaqələr olduqca inkişaf etmişdir və inkişaf etməkdədir.





44 günlük müharibənin gedişində öz dəstəyini əsirgəməyən hər han Azərbaycanın yanında olan Türkiyənin Ermənistan ilə də əlaqələrində köklü dəyişikliklər baş verəcək. Təbii ki, bu müharibədən məğlub ayrılan Ermənistanın özünü necə aparacağından asılı olacaq. Son günlər gündəmdən düşməyən Zəngəzur dəhlizi məsələsində Ermənistan anlaşıqlı siyasət yürüdərsə və dəhlizin çəkilməsində iştirak edərsə onunda qazancı az olmayacaq. Prezident İlham Əliyevin dediyi kimi, dəhliz ermənilər istəsədə istəməsə də çəkiləcək. Sadəcə olaraq bu asılıdı ermənilərin özündən könülü olsa qazanacaqlar istəməsələr yenə də itirən onlar olacaq.

Beləcə, Cənubi Qafqaz siyasəti Türkiyə üçün bir nizama girmiş olacaq, ancaq ermənilərin soyqırım iddialarını davamlı ortaya qoymaları və müzakirə mövzusu halına gətirmələri əlaqələrə mənfi təsir göstərməkdədir. Soyqırım məsələsindən ermənilərin birmənalı şəkildə əl çəkməli, regionda sülh və əminamanlığın bərpası üçün birbirlərinə qarşı olan düşmənçılıkdən əl çəkməlidirlər.

Dünyada törədilən ən böyük soyqırım XX əsrin sonunda ermənilərin törətdikləri Xocalı soyqırımıdır. Amma Azərbaycan tərəf ermənilərlə Qarabağda yaşamağı qəbul edə bilirsə, təbii ki, bunun nə qədər çətin olması göz qabağındadır. Ermənilr Avropaya inteqrasiya olunmaq üçün zorən də olsa Zəngəzur dəhlizinin qurulmasına mane olmayacaqlar. Tarixi düşmənliyin qızışdırılması və böyüdülməsi nə Türkiyə, nə də Ermənistan üçün xeyir gətirəcək. Azərbaycana gəlincə tarixi düşmənçiliyi davam etdirməsə də, olanları da unutmamalıdır. Cənubi Qafqaz üçün Türkiyənin əhəmiyyəti çox böyükdür. Əgər Türkiyədə yetərincə bölgəyə əhəmiyyət verib təhlüksizlik baxımından ağıllı addımlar atarsa, bölgədə Türkiyə üçün yetərincə böyük əhəmiyyət kəsb edəcək.

Geopolitik baxımından problemlərin ortasında olan Türkiyə üçün qaynayan bir qazan olan Qafqazda barışın və sülhün olması çox əhəmiyyətlidir. Bölgədə qısa zamanda sabitliyin təmin edilməsinin çətin olmasına baxmayaraq Türkiyə bütün yollardan istifadə edərək problemin həllinə nail olmalıdır. Türkiyə böyük maraqları və müdaxilələri daim üzərində hiss etdirən bu bölgəyə həddindən artıq həsaslıqla yanaşmalıdır. Qafqaz ilə əlaqədar bütün tarazılıqları göz qarşısında saxlamalıdır.

Türkiyə bölgə ilə əlaqələrində içtimaiyyətin təsiri ilə romantik və ani siyasətlər tətbiq etməkdən qaçınmalı, ağıllı yanaşmaları davam etdirərək realist bir siyasətlə özünə istiqamət verməlidir.

Cənubi Qafqaz iqtisadi və siyasi cəhətdən böyük bir potensiala malikdir. Cənubi Qafqaz Türkiyə üçün Türkiyədə Cənubi Qafqaz üçün böyük bir əhəmiyyətə malikdir. Qafqaz xalqları ilə yaxın siyasi, iqtisadi, ictimai və mədəni bağları olan Türkiyə üçün bu bölgədə sülh, sabitlik və əməkdaşlığın təmin edilməsi həyati əhəmiyyətli məsələlərdəndir.

Bu gün Cənubi Qafqaz Türkiyə ilə körpü yaratmış və əlaqələrini yüksək səviyyəyə gətirmişdir. Cənubi Qafqaz ölkələri ilə Türkiyə arasında yaxınlaşma, zaman-zaman gücünü itirmiş görünsə də aralarındakı müzakirə və İttifaqlar davamlılıq göstərmişdir. Siyasi və iqtisadi baxımdan Cənubi Qafqaza dəstək verən Türkiyə ilə türk dünyası arasında Azərbaycanın da yer aldığı bu bölgə, böyük körpü rolunu oynamaqdadır.

## ƏDƏBİYYAT

*1. Andican, Ahat (1998), 21 inci Yüzyılda İç Asiya Sempozyumu, 3 Aralik 1998, İstanbul.*

*2. E.Fuller, Grahham. Türkiyenin Yeni Doğu Politikası. Kasım, Ankara, 2008.*

*3. https://www/britannica/com/place/Caucasu/*

*4. Hunter S. The Transcaucasus in Transition/nation–building and conflict. Washington D.C./1994*

*5. Musa, İsmayıl. Azərbaycanın Xarici Syasəti. Üçüncü hissə. - Bakı, 2010. - 583 s.*

*6. Karpat, Kemal. Türk Diş Politikası: Tanıtıcı Bazı Noktalar, Kemal Karpat, Türkiye və Orta 7. Asiya, İmge Kitapevi, Ankara, 2003.*

*8. Kuloğlu. 21 inci Yüzyılın Başlanğıcında Türkiyənin Degişen İlgi və Etki Alanları", Stratejik Analiz Dergisi, Cilt 1, Sayı 10, Ankara, 2001.*

*9. novator/2017/04/24/turkiy-nin c-nibi-qafqaz-siyas-ti/*

*10. Timur, Necdet. Gelecegin Enerji Körpüsü Türkiye, Ulusal Strateji Savunma ve Sivil Havaçılk Dergisi, Sayı 33, mart 2003.*

*11. Бжезинский З. Большая шахматная доска. - Москва: Международные отношение, 1999, с. 62-63.*

*12. Бжезинский З. Выбор. Мировое госродстово, или глобольное лидерство. - Москва: Международные отношеные, 2004.*

*13. Гаджиев, К.С. Геополитика Кафказа. - Москва: Международные отношения, 2001, 464 с.*

*14. Дугин, А. Основы геополитики. - Москва: Арктогэя-центр, 1997.*

*15. Нартов, Н. Геополитика. - Москва: Юнити, 2004.*

*16. Независимая газета, 1999, 7 сентября.*